# Azərbaycan Respublikasının «Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı» medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikasının «Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı» medalının Əsasnaməsi və təsviri təsdiq edilsin (əlavə olunur).

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 17 may 2002-ci il***

***№ 329-IIQ.***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (2 iyun 2002-ci il, № 124) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 mart 2002-ci il, № 5, maddə 255) («VneshExpertService» LLC).***

***30 mart 2004-cü il tarixli, 612-IIQD nömrəli; 30 sentyabr 2013-cü il tarixli, 734-IVQD nömrəli Qanuna əsasən əlavələrlə («VneshExpertService» LLC).***

*«Azərbaycan Respublikasının*
*«Azərbaycan Respublikası Silahlı*
*Qüvvələri*
*Veteranı» medalının Əsasnaməsinin*
*və*
*təsvirinin təsdiq edilməsi haqqında»*
*Azərbaycan Respublikasının*
*2002-ci il 17 may tarixli,*
*329-IIQ nömrəli Qanunu ilə*
***təsdiq edilmişdir***

# «Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı» medalı haqqında

## Əsasnamə

1. «Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı» medalı ilə Azərbaycan Respublikasının Silahlı Qüvvələrində *və qanunvericilikdə nəzərdə tutulmuş digər silahlı birləşmələrin sıralarında (SSRİ Silahlı Qüvvələri və digər silahlı birləşmələrində xidmət müddəti də nəzərə alınmaqla)* 25 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçular təltif edilirlər.

2. «Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı» medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda «Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə» medalından sonra taxılır.

*«Azərbaycan Respublikasının*
*«Azərbaycan Respublikası Silahlı*
*Qüvvələri*
*Veteranı» medalının Əsasnaməsinin*
*və*
*təsvirinin təsdiq edilməsi haqqında»*
*Azərbaycan Respublikasının*
*2002-ci il 17 may tarixli,*
*329-IIQ nömrəli Qanunu ilə*
***təsdiq edilmişdir***

# «Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı» medalının təsviri

«Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı» medalı milli ornamentli ensiz lövhə ilə birgə bürüncdən tökülmüş və gümüş suyuna çəkilmiş, dairəvi formalı, diametri *36 mm* olan lövhədən ibarətdir.

Medalın ortasında Silahlı Qüvvələrin relyefli emblemi təsvir olunmuşdur. Emblemdən yuxarıda qövs boyunca «Azərbaycan Respublikası», aşağıda isə lent üzərində «Silahlı Qüvvələri Veteranı» sözləri həkk olunmuşdur. Aypara, ulduz və lent ağ rəngdədir.

Arxa tərəfi hamar səthlidir*, ortasında medalın seriyası və nömrəsi həkk olunmuşdur.*

Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, *37 mm x 50 mm* ölçüdə düzbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentdə zeytun rəngli fonda kənarlarından mərkəzə doğru ardıcıl olaraq Silahlı Qüvvələrin növlərinin rəngləri — 1 mm enində zeytun və ağ rəngli, 3 mm enində göy və ağ rəngli şaquli zolaqlar təsvir edilmişdir. *Xara lentin yuxarı hissəsinə 40 mm x 5 mm ölçüdə gümüşü rəngli təbəqə bərkidilir.*

Medala paltara bərkidilmək üçün elementi olan eyni xara lentdən üz çəkilmiş *37 mm x 10 mm* ölçülü qəlib əlavə olunur.

## «Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı» medalı



**“Azərbaycan Respublikasının “Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı” medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2002-ci il 17 may tarixli 329-IIQ nömrəli Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq qərara alır:

“Azərbaycan Respublikasının “Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı” medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2002-ci il 17 may tarixli 329-IIQ nömrəli Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 255; 2004, № 5, maddə 312) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qanunla təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı” medalının təsviri”ndə:

1.1. birinci hissədə “35 mm” sözləri “36 mm” sözləri ilə əvəz edilsin;

1.2. üçüncü hissədə “səthlidir” sözündən sonra “, ortasında medalın seriyası və nömrəsi həkk olunmuşdur” sözləri əlavə edilsin;

1.3. dördüncü hissədə:

1.3.1. birinci cümlədə “27 mm x 43 mm” sözləri “37 mm x 50 mm” sözləri ilə əvəz edilsin;

1.3.2. hissəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“Xara lentin yuxarı hissəsinə 40 mm x 5 mm ölçüdə gümüşü rəngli təbəqə bərkidilir.”;

1.4. beşinci hissədə “27 mm x 9 mm” sözləri “37 mm x 10 mm” sözləri ilə əvəz edilsin.

2. Həmin Qanuna əlavə edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı” medalının eskizi bu Qanuna əlavə olunmuş yeni eskizi ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 30 sentyabr 2013-cü il.**

"AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİ VETERANI" medalı

